KÜRD xalqı mübariz və qəhrəman xalqdır
H.Əliyev

# DÎPLOMAT

www. Diplomata-kurdi.com

№ 25 (269) 7-13 İyul, Tîrmeh, sal 2014
Ji meha şûbatê sala 2003-a tê weşandin

Həftəlik İctimai-siyasi qəzet
Rojnama heftename civakî û sîyasî

Qiyməti: 40 qəpik
Hêjaye:

Bilirsən, nə etmiş kürdlər bir zaman?
Qurtarmış İslamı çox ağır dardan!

Qədim Avropanın xaçpərəstləri,
Yüz illər sındırmış göy məsçidləri.

Müsəlman keçmişin öyrənsə əgər,
Kürdün dərgahına daim baş əyər.

Səbahəddin Eloğlu




Səh. 2

## Prezident İlham ƏLİYEV: İqtisadi inkişaf templəri baxımından Azərbaycan dünya liderinə çevrilmişdir



Səh. 8

## Barzanî digel serokê Parlemana Êraqê civî



Səh. 10

## Şandeke wezareta derve ya Frensa ligel serokwezîr civiya



Səh. 9

## Eger Amerîka bêje na jî dê serxwebûn bê ragehandin



Səh. 4

## Azərbaycanda Polis günü əmin-amanlığın əsas təminatçısı olan daxili işlər orqanları əməkdaşlarının Vətənə sədaqətinin rəmzidir – nazir Ramil Usubov



Səh. 12

## Ehmedê Xanî 300 yıl önce Kürd Devleti'nden bahsetti



Səh. 10

## Gelê kurd li ber berpirsiyaretî û ceribandineke dîrokî ye

## Referendum keçiriləcək - Kürdüstan yaradılır Səh. 3

## Karayilan: Eger DAIŞê Kobanî girt dê Kerkûkê jî bigire Səh. 8

## Турция по-новому взглянула на курдов Səh. 14

## 'Kürdistan normlara uygun ayrılırsa dünya bağımsızlığı tanır' Səh. 13

## CIA: Divê Amerîka piştgiriya Kurdan bike Səh. 7

## Yahudiler dostumuz, H.Dicle'ler münafık... Səh. 12



Səh. 11

## Demirtaş: Yerel bütçeyi güçlendirmek lazım



Səh. 6

## Helbestvanê Kurd Îbrahîm Metînî (1909 – 2001)



Səh. 7

## Serxwebûna Kurdistanê û Îsraîl



Səh. 6

## TƏ-ZADLAR

# Prezident İlham ƏLİYEV: İqtisadi inkişaf templəri baxımından Azərbaycan dünya liderinə çevrilmişdir

Bu fikir dövlət başçımızın Avropanın "Neurope.eu" informasiya portalında dərc olunmuş müsahibəsində səslənmişdir.

Azərbaycan hazırda dünyanın inkişaf etmiş dövlətləri ilə bir sıradadır. Son on ildə xarici siyasətdə, iqtisadi və mədəni sahələrdə əldə edilən uğurlar ölkəmizin sürətli inkişaf yolunda olmasından xəbər verir. Artıq dünyanın nüfuzlu qurumları da öz tədbirlərini Azərbaycanda keçirməyə üstünlük verirlər. Azərbaycanın mühüm beynəlxalq tədbirlərə ev sahibliyi etməsi artıq ənənə halını almışdır. 2013-cü ildə İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində Fələstinə yardım məqsədilə beynəlxalq konfransın, III Beynəlxalq Humanitar Forumun, İkinci Mədəniyyətlərarası Dialoq Forumunun, Davos Dünya İqtisadi Forumunun və digər yüksək səviyyəli qlobal tədbirlərin keçirilməsi bunu bir daha təsdiq edir. Bu, ölkəmizə olan inam və etimadın göstəricisidir.

Bu günlərdə Azərbaycan Prezidenti İlham Əliyevin Avropanın "Neurope.eu" informasiya portalında dərc olunmuş müsahibəsində bu barədə daha ətraflı məlumat verilmiş, ölkəmizin dünyanın inkişaf etmiş dövlətləri sırasına qoşulması faktı öz əksini tapmışdır. Son 10 ildə əldə olunan uğurlar, iqtisadi, siyasi və mədəni sahələrdə qazanılan nəticələr 23 illik müstəqillik tarixi olan bir ölkə üçün, təbii ki, böyük nailiyyətdir. Keçmiş SSRİ-nin süqutundan sonra müstəqillik qazanmış MDB dövlətləri arasında məhz Azərbaycanın beynəlxalq aləmə sürətli inteqrasiyası, reytinqinin getdikcə artması siyasi uzaqgörənliyin, davamlı və məntiqli strategiyanın nəticəsidir. Ölkəmizin sürətli inkişafı, xalqın ulu öndər Heydər Əliyev siyasi xəttinə inamını daha da artırmış və bu siyasi kursun alternativi olmadığı barədə inam yaratmışdır. Ümummilli lider Heydər Əliyevin möhkəm özüllər üzərində qurduğu daxili və xarici siyasəti Prezident İlham Əliyev uğurla davam etdirir.

Artıq Azərbaycan iqtisadi inkişaf templəri baxımından dünyada lider dövlətə çevrilmişdir. İqtisadi qüdrətimizin getdikcə möhkəmlənməsi ölkəmizi daha da gücləndirmişdir. Bəzi faktlara əsaslanaraq respublikamızın son 10 ildə qazandığı nailiyyətləri diqqətə çatdırmaq istərdik. Düşünülmüş proqramlara əsaslanan məqsədyönlü fəaliyyət nəticəsində son 10 ildə ümumi daxili məhsul 3,4 dəfə, iqtisadiyyatın qeyri-neft sektoru 2,6 dəfə, büdcə gəlirləri 16 dəfə artmış, həmçinin strateji valyuta ehtiyatlarının həcmi 50 milyard ABŞ dollarını keçmişdir. Milli iqtisadiyyata 170 milyard ABŞ dollarından artıq sərmayə yatırılmışdır. Təbii ki, bütün bunlar əhalinin yaşayış tərzinin yaxşılaşmasına böyük təsir göstərmişdir. Bunun nəticəsidir ki, son 10 ildə əhalinin gəlirləri 6,5 dəfə, orta aylıq əməkhaqqı isə 5,5 dəfə artmış, yoxsulluğun səviyyəsi 49 faizdən 5,3 faizə, işsizlik isə 5 faizə düşmüşdür.

Bir neçə il əvvəl dünyanı iqtisadi və maliyyə böhranı ağuşuna aldığı bir vaxtda Azərbaycanda həyat öz axarınca davam etmiş, üstəlik əhalinin pensiyaları, əmək haqları, sosial müavinətləri artırılmış, aztəminatlı ailələrin sosial müdafiəsinin daha da gücləndirilməsi istiqamətində əhəmiyyətli tədbirlər həyata keçirilmişdir. Bu uğurlara siyasi və iqtisadi strategiyanın düzgün müəyyənləşdirilməsi nəticəsində nail olunmuşdur. Onu da qeyd edək ki, ölkəmizin qazandığı nailiyyətlər dünyanın nüfuzlu beynəlxalq təşkilatları tərəfindən də yüksək dəyərləndirilir. Məsələn, Dünya İqtisadi Forumunun 2013-2014-cü il üzrə Qlobal Rəqabətlilik Hesabatına görə Azərbaycan dünya ölkələri arasında 39-cu sıradadır.



Əhalini ən çox narahat edən işsizlik probleminin aradan qaldırılması Prezident İlham Əliyevin qarşıya qoyduğu prioritet vəzifələrdən biri olub. Bu barədə "Neurope.eu" informasiya portalının əməkdaşının "Regionların sosial iqtisadi inkişafı ilə bağlı üçüncü Dövlət Proqramı qəbul edilmişdir. Bu proqram 2014-2018-ci illəri əhatə edir. İlk iki proqramın həyata keçirilməsini necə qiymətləndirirsiniz və üçüncü proqramdan nə gözlənilir"– sualını cavablandıran dövlətimizin başçısı demişdir: "2004-cü ildə ilk regional inkişaf proqramını qəbul edərkən məqsədimiz bölgələrin hərtərəfli inkişafını təmin etmək və paytaxtla ölkənin qalan hissəsi arasındakı uyğunsuzluğu aradan qaldırmaq olmuşdur. Hətta 2003-cü ildə keçirilən seçkilərdən öncə demişdim ki, əgər xalq mənə etimad göstərsə, ilk növbədə, regionların inkişafı məsələsi ilə məşğul olacağıq və bu məqsədlə xüsusi dövlət proqramı qəbul ediləcək. Bu, baş verdi. 2004-2008-ci və 2009-2013-cü illəri əhatə edən iki dövlət proqramı, bu proqramlara əlavə olaraq 250 sənədin imzalanması və həyata keçirilməsi regionların inkişafında dönüş nöqtəsi olmuş və bölgələrimizin sosial-iqtisadi mənzərəsini dəyişmişdir. Nəticədə, regionlardakı ictimai xidmətlərin keyfiyyəti və sosial infrastruktur əsaslı dərəcədə təkmilləşmiş, biznes mühiti daha əlverişli olmuş, sərmayələr artmış, minlərlə yeni müəssisə istifadəyə verilmiş və 900 mini daimi olmaqla, 1,2 milyondan artıq yeni iş yeri yaradılmışdır. Son 10 ildə regionlarda məhsul buraxılışı 3,2 dəfə, sənaye istehsalı isə 3,1 dəfə artmışdır. Azərbaycanın bütün regionları və qəsəbələri abadlaşmış və müasirləşmişdir. İnamla qeyd edə bilərəm ki, həyata keçirilmiş proqramlar ölkəmizin regionlarının, ümumilikdə Azərbaycanın iqtisadi potensialının inkişafına böyük töhfə vermişdir". Respublikamızda dünya standartlarına uyğun istehsal və sənaye müəssisələrinin yaradılması xarici ölkə vətəndaşlarının da diqqətindən yayınmamışdır.

Onlar işləmək üçün ölkəmizə üz tutmuş və hazırda da bəzi müəssisələrdə çalışırlar. Halbuki, bir vaxtlar soydaşlarımız iş axtarmaq üçün müxtəlif ölkələrə üz tuturdular. Ölkəmizdə yaradılmış davamlı ictimai-siyasi sabitlik çoxlu sayda iri investorun Azərbaycana sərmayə qoymasına geniş imkanlar açmışdır. Sahibkarlığın inkişafına yaradılmış əlverişli şərait də buna təkan vermişdir. Məhz bunun nəticəsidir ki, son illər Azərbaycanda işləmək istəyən xarici şirkətlərin sayı getdikcə artmaqdadır.

Son on ildə xarici siyasət sahəsində qazanılan uğurlari müstəqillik tariximizin zirvə nöqtəsi hesab etmək olar. Ancaq bu uğurlar bizim üçün son hədd olmayacaq. Azərbaycan Prezidenti "Ölkənin həm iqtisadi, həm də sosial inkişafı, eyni zamanda, həm də güclü beynəlxalq status deməkdir. Xarici siyasətinizin uğurları barədə nə deyə bilərsiniz"— sualına cavab verərkən son 10 ildə bu sahədə əldə olunan nailiyyətləri yüksək qiymətləndirərək demişdir: "Azərbaycanın hərtərəfli inkişafı, iqtisadi potensialının güclənməsi, həyata keçirilən fəal xarici siyasət ölkəmizin nüfuzunun yüksəlməsini, beynəlxalq aləmə daha sıx inteqrasiyasını, ikitərəfli və çoxtərəfli əlaqələrin möhkəmlənməsini təmin etmişdir. Bu gün Azərbaycan müstəqil siyasət yürüdən, qlobal siyasi proseslərlə və beynəlxalq əlaqələr sistemi ilə bağlı öz mövqeyi olan və böyük beynəlxalq nüfuza malik bir ölkə hesab edilir. 2011-ci ildə Azərbaycanın BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi tarixi nailiyyət və xarici siyasətimizin böyük uğuru, həmçinin dünyadakı nüfuzumuzun göstəricisi olmuşdur. Aydın görünür ki, beynəlxalq aləm dövlətimizin mövqeyini dəstəkləyir, addımlarımızı təqdir edir. Azərbaycan bütün beynəlxalq təşkilatlarda ləyaqətlə çıxış edir və öz maraqlarını hər şeydən üstün tutur. BMT Təhlükəsizlik Şurasına ikiillik üzvlüyümüz, həmçinin təşkilata sədrlik dövründə Azərbaycan qlobal təhlükəsizliyə, dünyada sülhün bərpasına, ölkələr və sivilizasiyalararası dialoqun inkişafına öz töhfəsini vermişdir".

Bu gün hər bir soydaşımızı narahat edən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin hələ də öz həllini tapmamasıdır. Bunun əsas səbəblərindən biri Ermənistanın bu gün də işğalçılıq siyasətindən əl çəkməməsi, qeyri-konstruktiv mövqe nümayiş etdirməsi, digər səbəb isə özlərini insan hüquq və azadlıqlarının müdafiəçisi kimi tanıdan bəzi beynəlxalq təşkilatların ikili standart nümayiş etdirməsidir. Ermənistan dövləti 20 ildən artıqdır ki, Azərbaycan ərazisinin 20 faizini işğal altında saxlayır. Bu işğal nəticəsində bir milyondan artıq soydaşımız öz doğma ocaqlarından didərgin salınaraq qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Ermənistan silahlı qüvvələrinin işğal altında saxladığı Azərbaycan ərazilərindən qeyd-şərtsiz çıxmaları barədə nüfuzlu beynəlxalq təşkilatların qəbul etdikləri qətnamələrin bu vaxta qədər icra olunmaması da ikili standartların nəticəsidir.

Dünya birliyinin bu ədalətsizliyə hələ də göz yumması ermənilər daha da azğınlaşdırır və onlar hər gün atəşkəs rejimini pozurlar. Ermənistan dünya birliyində artıq işğalçı və terrorçu dövlət kimi tanınır. Onların qəddarlığı artıq beynəlxalq aləmdə məlumdur. Dövlətimizin başçısı müsahibədə bu məqamları da vurğulayaraq demişdir ki, artıq bəzi Latın Amerikası ölkələri Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində Azərbaycanın ədalətli mövqeyini dəstəkləmişlər. Ümumilikdə, dünyanın 10 ölkəsi Ermənistan silahlı qüvvələrinin 1992-ci ildə Azərbaycanın Xocalı şəhərində törətdiyi qırğını soyqırımı aktı kimi tanımışdır. Bu ölkələrin parlamentləri müvafiq qərarlar qəbul etmişlər.

Ermənistanın işğalçılıq siyasətinin qarşısının alınacağını qətiyyətlə bildirən Azərbaycan Prezidenti qeyd etmişdir: "Ermənistan rəhbərliyi başa düşməlidir ki, Azərbaycan öz torpaqlarında ikinci erməni dövlətinin yaradılmasına heç zaman imkan verməyəcəkdir. Münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməlidir və həll ediləcəkdir. Münaqişə həll olunmadıqca, Ermənistan dövləti bütün transmilli və regional layihələrdən kənarda qalacaq, erməni xalqının acınacaqlı vəziyyəti daha da pisləşəcək və ölkənin bütün imkanları tamamilə tükənəcəkdir".

"Qarşınıza qoyduğunuz strateji məqsəd nədir"– sualına dövlətimizin başçısının verdiyi cavab da çox tutarlı olmuşdur: "Gündəliyimizdəki strateji məqsəd Azərbaycanın müstəqilliyini bundan sonra da gücləndirmək və ölkəmizi dünyanın ən inkişaf etmiş və rəqabətə davamlı ölkələri səviyyəsinə yüksəltməkdir. Buna görə də müasir dünyanın çağırışları da nəzərə alınmaqla, regionlardakı sürətli inkişaf davam etdiriləcəkdir. İnanıram ki, "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial iqtisadi inkişafı Dövlət Proqramı"nın və digər böyük layihələrin icrası qeyri-neft sektorunun davamlı inkişafına şərait yaradacaq, ictimai xidmətlər və sosial infrastruktur daha da təkmilləşəcək və Azərbaycan dünyanın aparıcı ölkələri sırasına çıxacaqdır.

Bütün bu uğurlardan sonra ölkəmizdə keçirilən sonuncu prezident seçkilərində prezidentliyə namizədlər arasında xalqın düzgün seçim etməsi labüd idi. Xalq Heydər Əliyev siyasi xəttinə inanır və böyük ümid bəsləyir. Uzun illərdi ki, bu inam və etimadın şahidi olan xalq 2013-cü ildə keçirilən prezident seçkilərində böyük səs çoxluğu ilə yenidən cənab İlham Əliyevi dəstəklədi.

Sonuncu seçkilər ölkəmizin ictimai-siyasi həyatında mühüm hadisə hesab olunur. Bu seçkinin nəticəsi beynəlxalq birlik tərəfindən də yüksək qiymətləndirilib. AŞPA, ATƏT Parlament Assambleyası, İslam Əməkdaşlıq Təşkilatı, MDB və digər nüfuzlu təşkilatlar, həmçinin seçkilərin gedişini izləmiş beynəlxalq müşahidəçilər və siyasi ekspertlər seçkilərin azad, ədalətli, şəffaf və demokratik şəraitdə keçirildiyini bildirmişlər. Bütün bunlar seçkilərlə bağlı xalqımızın və beynəlxalq ictimaiyyətin fikirlərinin üst-üstə düşdüyünü göstərir. Azərbaycan xalqı əksəriyyətlə verdiyi səslə bu günədək həyatda müşahidə etdiyi siyasətə öz dəstəyini nümayiş etdirmiş və bu siyasətin davamlı olması üçün bundan sonra da ölkə Prezidentinin ətrafında sıx birləşəcəyini bildirmişdir. ***"Xalq qəzeti"***



# Referendum keçiriləcək - Kürdüstan yaradılır

Məsud Bərzani Kərkük və digər problemli bölgələrdə İraq Konstitusiyasının 140-cı maddəsinə əsasən referendum keçiriləcəyini açıqlayıb.

Publika.az "Milliyət"ə istinadən xəbər verir ki, İraq Kürd Regional Rəhbərliyinin (İKRR) lideri Məsud Bərzani peşmərgələrin nəzarətdə saxladığı bölgələrdə referendum keçiriləcəyini bildirib. Bərzani "İraq Konstitusiyasının 140-cı maddəsinə əsasən, Kərkük və digər problemli bölgələrdə açıq və şəffaf bir referendum keçirəcəyik" deyib.

Məsud həmçinin BMT təmsilçisini də bu referendumu izləməsi üçün İraqa dəvət edib.

# Ərdoğanın taleyi kürdlərdən asılıdır

"Qeyri-adi heç nə baş verməsə, hazırkı baş nazir Rəcəb Tayyib Ərdoğan seçkiləri udacaq". Publika.az-ın Türkiyə mediasına istinadən verdiyi məlumata görə, belə bir proqnozla türkiyəli politoloq Mustafa Türkeş çıxış edib.

Onun fikrincə, seçkilərin nəticəsi kürd əhalisinin dəstəyindən də çox asılıdır. İndiyə kimi Türkiyə prezidenti postuna üç namizəd irəli sürülüb. Bunlar AKP-nin namizədi R.T.Ərdoğan, Cümhuriyyət Xalq Partiyası və Milliyyətçi Hərəkat Partiyası başda olmaqla beş müxalifət partiyasının namizədi Ekmeleddin İhsanoğlu və kürdlərin Xalqların Demokratik Partiyasının namizədi Səlahəddin



Demirtaşdır. Prezident seçkilərinin birinci turu 10 avqustda keçiriləcək. Qalib gəlmək üçün namizədlərdən biri 51 faiz səs yığmalıdır. Əgər namizədlərdən biri ilk turda göstərilən səsləri toplaya bilməsə, 24 avqustda ikinci tur keçiriləcək.

"Ərdoğan qalib gəlmək üçün bütün şanslara malikdir. Əgər qeyri-adi heç nə olmayacaqsa, Ərdoğan prezident olacaq", - Türkeş bildirib.

Analitikin fikrincə, Ərdoğan birinci turda qalib gələ bilməsə, böyük ehtimalla ikinci tur üçün kürdlərin partiyası ilə danışıqlara gedəcək: "Bu halda kürd partiyasının elektoratı Ərdoğanı dəstəkləyəcək. Razılaşma olmazsa, o halda İhsanoğlunun qələbə şansları artacaq".



# Maliki kürdlərə xəbərdarlıq etdi

İraq Baş naziri Nuri əl-Maliki Kərkükü ələ keçirən kürdlərə xəbərdarlıq edib. Axar.az xəbər verir ki, Maliki televiziyada çıxışı zamanı İŞİD-ə qarşı mübarizə aparmaq üçün tayfa lidelərinə müraciət edib. İraq Baş naziri hökumətə qarşı mübarizə aparan tayfa liderlərinə çağırış edərək onların bağışlanacağını söyləyib.

Maliki kürdlərin yaşanan hadisələrdən istifadə edərək Kərkükü və ətraf yerləri ələ keçirməsinə də münasibət bildirib. Nazir heç kimin kürd liderlərinin atdığı addımlara bəraət qazandırmağa haqqının olmadığını bildirib. Kürd Regional rəhbəri Məsut Bərzani də İraq Baş nazirinin tənqid hədəfi olub.

# Jirinovski: "Kürdüstan dövləti yaradılacaq"

Rusiya Liberal Demokrat Partiyasının lideri, deputat Vladimir Jirinovski gələcəkdə müstəqil Kürdüstan dövlətinin qurulacağını və ABŞ-ın Yaxın Şərqdə dayağı olacağını bildirib. Axar.az xəbər verir ki, Rossiya-24 televiziya kanalına danışan Jirinovski İraqda yaşanan olaylardan bəhs edib. Jirinovski İraqın 3 hissəyə parçalanacağını, Mosulun da Kürdüstanın paytaxtı olacağını söyləyib. Həmçinin Jirinovski bildirib ki, paytaxtı Bəsrə olan şiə və mərkəzi Bağdad olan sünni dövləti qurulacaq. Gələcəkdə İran, Türkiyə və Suriyada olan kürd bölgələrinin də onlara qatılacağını deyən Jirinovski 40 milyonluq böyük Kürdüstan dövlətinin qurulacağını, Yaxın Şərqdə əhali baxımından sıxlığın meydana gələcəyini qeyd edib.





# İŞİD-lə kürdlər arasında toqquşmalar davam edir

İraqda toqquşmaların davam etdiyi Cəlavlə qəsəbəsindəki nəzarətinin böyük hissəsinin peşmərgələrin əlinə keçdiyi qeyd olunur. Publika.az xəbər verir ki, Diyala şəhərinin Cəlavlə qəsəbəsini işğal edən İŞİD (İraq Şam İslam Dövləti) terrorçularına qarşı İraq Kürd Regional Rəhbərliyi peşmərgələrinin əməliyyat təşkil etdiyi bildirilib. Toqquşmaların hələ də davam etdiyi Cəlavlə qəsəbəsinin qərbində İŞİD yaraqlıları ilə peşmərgələr arasında şiddətli toqquşma davam edir.

Terrorçuları tamamilə qəsəbədən çıxartmaq üçün bölgəyə raket və top zərbələri endirilir.

# İraq: "Xütbə oxuyan şəxs İŞİD lideri deyil"

İraq hökuməti İŞİD lideri Əbubəkr əl Bağdadiyə aid olduğu iddia edilən görüntülərin saxta olduğunu iddia edib.

Axar.az xəbər verir ki, Daxili İşlər Nazirliyinin sözçüsü general Saad Maan açıqlamasında qəti şəkildə bildirib ki, bu gün yayımlanan görüntülərdə xütbə oxuyan şəxs Bağdadi olmayıb. Nazirlik nümayəndəsi Bağdadinin bir neçə gün əvvəl təşkil edilən hava hücumunda yaralandığını və müalicə üçün Suriyaya aparıldığını vurğulayıb. Qeyd edək ki, bu gün internetdə yayılan görüntülərdə İŞİD lideri Əbubəkr əl Bağdadi olduğu iddia edilən şəxs xütbə oxuyaraq müsəlmanlara müraciət edib.



# İŞİD darmadağın oldu

İraqın Əl-Ənbar rayonunda təhlükəsizlik qüvvələri ilə terror təşkilatı olan İraq Şam İslam Dövləti (İŞİD) arasında çıxan qarşıdurmalarda 22 nəfərin öldüyü, 17 nəfərin isə yaralandığı bildirilib. Publika.az-ın məlumatına görə, Ənbar əməliyyat komandiri general-leytenant Rəşid Felih bildirib ki, Ənbara bağlı əl-Fəllucə mahalının şərq və şimalında ordu birlikləri ilə İŞİD arasında yaşanan qarşıdurmalarda 18 terrorist öldürülüb, 11 terrorist isə yaralanıb. Bundan başqa, "İŞİD"ə aid 5 hərbi vasitənin yandırıldığını da general qeyd edib. Qarşıdurmada İraq ordusunun 3 əsgərinin yaralandığını bildirilir. Qeyd edək ki, bir müddətdir İraqda silsilə vəhşiliklər həyata keçirən "İŞİD"ə aid silahlı qruplaşmalar Mosul, Tikrit, Baxibə və Telafer şəhərlərini, bundan başqa Ənbar, Əl-Qaim, Rava, Aneh, Ratbə və Hadisə kəndlərini ələ keçirib.



Qarşıdurmalar səbəbilə təxminən 1 milyon vətəndaş köç etmək məcburiyyətində qalıb. Ölkənin müxtəlif yerlərində "İŞİD" ilə təhlükəsizlik qüvvələri arasında toqquşmalar davam edir. İraq ordusu "İŞİD"ə aid silahlı qruplaşmaların nəzarətində olan bölgələrə hava hücumları təşkil edir.

# İŞİD-lə türkman tayfalar arasında qanlı savaş başladı

İraqın Təlafer şəhərində "İraq Şam İslam Dövləti" terror təşkilatı ilə sünni türkman tayfalar arasında yeni qarşıdurmaların baş verdiyi bildirilir. Axar.az xəbər verir ki, türkmanların tayfa lideri Heydər Əli Çolak açıqlamasında İŞİD-in beyət çağırışlarına müsbət cavab vermədikləri üçün hər iki tərəf arasında qanlı döyüş başladığını söyləyib. Hər iki tərəfdən çoxlu sayda ölü və yaralıların olduğu qeyd edilir. Çolak yaşanan qarşıdurmalar səbəbindən onlarla türkman ailəsinin evlərini tərk edərək bölgədən qaçdığını və boşaldılan evlərin də soyğuna məruz qaldığını vurğulayıb.



# Şok: Türkiyə ərazisinin bir hissəsini kürdlərə bağışlayır

"Türkiyə İraqın süqutunu qəbul edəcək, amma yalnız kürd ambisiyalarının öz ərazisinə daxil olmaması şərti ilə buna razılıq




verəcək". Axar.az xəbər verir ki, bu açıqlama ilə erməni analitiki Naira Ayrumyan çıxış edib. O, Türkiyənin öz torpaqlarını qorumaqdan ötrü ərazisinin bir hissəsini güzəştə gedəcəyini söyləyib: "İraq faktiki olaraq üç yerə parçalanır. Ona görə də Türkiyə kürd və sünni liderləri ilə danışıqlara tələsir. Türkiyə İraqın süqutunu qəbul edəcək, amma yalnız kürd ambisiyalarının öz ərazisinə daxil olmaması şərti ilə buna razılıq verəcək. Aydındır ki, Türkiyədə keçiriləcək seçkilər İraqın parçalanması və Kürdüstan dövlətinin yaranması ilə eyni vaxta düşəcək. Bəs Türkiyənin əraziləri yeni kürd dövlətinin tərkibinə daxil olacaqmı? Bu bəzi analitiklər tərəfindən istisna edilmir. Türkiyə parlamenti artıq Öcalanla danışıqlar üçün fəaliyyətə başlayıb. Buradan belə anlamaq olar ki, Birinci Dünya Müharibəsindən 100 il sonra Türkiyə özünü qorumaqdan ötrü ərazisinin bir hissəsini kürdlərə verə bilər.

Amma bir şey var: Türkiyə Kürdüstana Qərbi Ermənistanı da (ermənilər hələ də Türkiyənin şərq vilayətlərini "Böyük Ermənistanın" tərkib hissəsi hesab edirlər – red.) bağışlayacaq. Region dəyişir. Türkiyə diplomatiyası hadisələrə yetişə bilmir. İraqın parçalanması regional partlayış üçün detonator rolunu oynaya bilər və Ankara ilə Moskva bundan xeyli ziyan görəcəklər".

# İŞİD-ə qarşı döyüşən kürd qadın əsgərlər

İraq Kürd Regional Rəhbərliyinin (İKRR) qadın peşmərgələri (əsgər – red) İraq Şam



İslam Dövləti (İŞİD) yaraqlılarına qarşı hazır vəziyyətdədirlər. Xüsusi birlikdəki 500 qadın peşmərgə İraqın vətəndaş qırğınına sürükləndiyi vaxtda daha ciddi təlimdən keçirlər.

# İsraildən açıqlama: "Kürd dövləti yaransa..."

İraqda "İraq və Şam İslam Dövləti" (İŞİD) terror təşkilatının hücumlarının davam etdiyi bir vaxtda İsraildən maraqlı bir şərh gəlib. Publika.az-ın "Milliyet" qəzetinə istinadən verdiyi məlumata görə, İsrail Şimali İraqda qurulacaq müstəqil bir kürd dövlətini ilk olaraq özlərinin tanıyacağını açıqlayıb. Bu gün verilən açıqlamada israilli mütəxəssislər müstəqil kürd dövlətinin yaranmasının qaçılmaz olduğunu ifadə edib.



Açıqlamada "bir yəhudi dövləti bir kürd dövlətini ən qısa zamanda qəbul edəcək" deyilib. Məlumata görə, ABŞ dövlət katibi Con Kerri Bağdad və Ərbilə etdiyi səfərləri İsrail xarici işlər naziri Aviqdor Libermanla qiymətləndirib. İddialara görə, İsrail 1960-cı illərdən bu yana kürdləri ərəblərə qarşı bir sədd olaraq görür. İsrailin həmin illərdən bu günə qədər kürdlərlə gizli hərbi, kəşfiyyat və iş əlaqələrinin olduğu bildirilir.

# Azərbaycanda Polis günü əmin-amanlığın əsas təminatçısı olan daxili işlər orqanları əməkdaşlarının Vətənə sədaqətinin rəmzidir – nazir Ramil Usubov

Azərbaycanda Polis günü ölkəmizdə əmin-amanlığın əsas təminatçısı olan daxili işlər orqanları əməkdaşlarının Vətənə və vəzifə borcuna sədaqətinin rəmzidir, - Trend-in məlumatına görə, bunu cümə günü "Azərbaycan" qəzetinə müsahibəsində daxili işlər naziri Ramil Usubov bildirib. "Polis günü, eyni zamanda, hər bir Azərbaycan vətəndaşının bayramıdır. 1918-ci il iyulun 2-də Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin qərarı ilə təsis edilmiş polis orqanları mərdlik, cəsarət və rəşadətlərlə zəngin bir yol keçərək, həm cümhuriyyət, həm də Sovetlər Birliyi dövründə öz şərəfli missiyasını layiqincə yerinə yetirib, cinayətkarlıqla mübarizənin ön sıralarında duraraq, daxili asayişin və təhlükəsizliyin təmin edilməsində mühüm rol oynayıb, böyük təcrübə qazanıb, təşkilati cəhətdən möhkəmlənib", - nazir deyib. Usubov qeyd edib ki, bütün bunlarla bərabər, polisin şanlı tarixinin ən mühüm mərhələləri, sözsüz ki, xalqımızın Ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır.

"Məhz ulu öndərin 1969-cu ildə respublikaya rəhbər seçilməsindən sonra, Daxili İşlər Nazirliyinə dövlət qayğısı gücləndməklə xalqa sədaqətli kadrların irəli çəkilməsinə, vətənpərvərlik və milli-mənəvi dəyərlər ruhunda tərbiyəsinə xüsusi diqqət yetirildi. Bunun nəticəsi idi ki, Dağlıq Qarabağ münaqişəsinin ilk günlərindən Ermənistanın təcavüzünə qarşı mübarizənin ön sıralarında mərdliklə döyüşən polis yüzlərlə şəhid versə də, öz vətəndaşlıq borcunu sonadək yerinə yetirdi", - nazir deyib.Usubov bildirib ki, bu illərin danılmaz həqiqətlərindən biri də budur ki, artıq heç bir qüvvə daxili işlər orqanlarına Vətənə xidmət borcunu yerinə yetirməkdə mane olmaq iqtidarında deyil.

"Fəxr edirik ki, xalqımızın xilaskarının Azərbaycanın müstəqilliyinin və dövlətçiliyin qorunub-saxlanılması, gələcək inkişafı naminə sabitliyin yaradılması ilə bağlı gördüyü əzəmətli işlərdə şəxsi heyətimizin də layiqli əməyi olub. Əgər ötən əsrdə müstəqilliyin bərqərar olması üçün əmin-amanlıq hava-su kimi zəruri idisə, dövlət quruculuğunun bugünkü yeni mərhələsində sabitlik Azərbaycanın tərəqqisinin, qazandığı uğurların, dinamik inkişafda liderliyinin rəmzinə və respublikaya beynəlxalq investisiyaların cəlb edilməsinin fundamental faktoruna çevrilmişdir. Bu mənada, dövlət başçısı cənab İlham Əliyevin ölkəmizin qüdrətlənməsi, vətəndaşlarımızın rifah halının yaxşılaşması üzrə həyata keçirdiyi davamlı tədbirlər, şəxsi rəhbərliyi ilə müasir Azərbaycanın inkişaf tempinə uyğun aparılan islahatlar Daxili İşlər Nazirliyi sistemində də fəaliyyətin beynəlxalq standartlar səviyyəsinə yüksəlməsində əhəmiyyətli rol oynamışdır", - nazir əlavə edib. Ölkədə cinayətkarlığa qarşı qətiyyətli mübarizənin başlanğıcını qoymuş ulu öndər Heydər Əliyevin 9 avqust 1994-cü il tarixdə imzaladığı "Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi tədbirləri haqqında" fərmanından ötən dövrdə həyata keçirilən əməliyyat-axtarış tədbirləri ilə 22 mindən çox cinayətkar qrup və dəstə zərərsizləşdirilib. "Əllərdə qanunsuz saxlanılan 33 minə yaxın odlu silah yığılmış və onun tətbiqi ilə törədilən cinayətlərin sayı, təxminən, 7 dəfə azalmışdır. Axtarışda olan 76 minə yaxın təqsirləndirilən şəxs tutulmuş, dövriyyədən qanunsuz 4 tondan çox narkotik vasitə çıxarılıb. Son illər isə bir sıra ağır cinayətlərin davamlı şəkildə azalma təmayülü müşahidə olunur. Bu müsbət tendensiya cari ilin ötən dövründə də davam etmişdir. Cinayətlərin dinamikasında qəsdən sağlamlığa ağır zərər vurmalar, hədə-qorxu ilə tələb etmələr, quldurluqlar, soyğunçuluqlar, oğurluqlar, xuliqanlıqlar və s. nəzərəçarpacaq dərəcədə azalıb, adamları girovgötürmə cinayətləri qeydə alınmayıb. Şəxsiyyət əleyhinə olan cinayətlərin, o cümlədən, qəsdən adam öldürmələrin, soyğunçuluqların, hədə-qorxu ilə tələb etmələrin açılma göstəriciləri xeyli yaxşılaşıb" , - Usubov əlavə edib. Nazirin sözlərinə görə, daxili işlər orqanlarının orta və böyük rəis heyəti vəzifələrində xidmət edən ali təhsilli əməkdaşların xüsusi çəkisi 1994-cü illə müqayisədə 58,3%-dən 88,5%-dək, onların tərkibində hüquqşünasların xüsusi çəkisi 33,3%-dən 76,4%-dək yüksəlib.

Artıq neçə ildir ki, Azərbaycan ictimai asayişin və əmin-amanlığın qorunması sahəsində dünyanın öncül dövlətlərindəndir. Trend xəbər verir ki, bunu daxili işlər naziri, general-polkovnik Ramil Usubov DİN-in Polis Akademiyasında 2 iyul - polis işçilərinin peşə bayramı münasibətilə keçirilən təntənəli tədbirdə deyib.

Nazir qeyd edib ki, 2013-cü il və cari ilin 6 ayı ərzində 31 mindən çox ərizə və şikayət araşdırılıb, eləcə də nazirliyin rəh-



bərliyi və struktur xidmətləri tərəfindən paytaxtda və respublikanın müxtəlif bölgələrində 7 minə yaxın vətəndaş qəbul edilib: "Bütün müraciətlər üzrə qanunvericiliyə uyğun zəruri tədbirlər görülüb, əksəriyyəti yerində həll olunub. Həyata keçirilmiş hərtərəfli islahatlar, innovasiya və modernləşmə fəaliyyətinin keyfiyyətcə yeni müstəviyə yüksəlməsi cinayətkarlığın, onun transmilli mütəşəkkil növlərinin təhdidlərinə möhkəm sipər çəkməyə, vətəndaşlarımızın qanuni mənafelərini etibarlı müdafiə etməyə tam imkan verir".

R.Usubov bildirib ki, əhalinin hər 100 min nəfərinə düşən cinayətlərin sayı ötən 10 ildə orta hesabla 231 fakt olmaqla əksər dünya ölkələri ilə müqayisədə xeyli azdır. Bu dövrdə cinayətləin orta illik açılması 90 faiz olub, 3 minə yaxın cinayətkar qrup və dəstə zərərsizləşdirilib, axtarışda la 37 mindən çox təqsirləndirilən şəxs tutulub. Əllərdə qanunsuz saxlanılan 12 mindən artıq odlu silah yığılıb və onun tətbiqi ilə törədilən cinayətlər əhəmiyyətli dərəcədə azalıb. Nazirin sözlərinə görə, məqsədyönlü profilaktik tədbirlər sayəsində qeydə alınan hüquqazidd əməllərin 90 faizini böyük ictimai təhlükə törətməyən və az ağır, yalnız 10 faizini ağır və xüsusilə ağır cinayətlər təşkil edir: "Bütün bunlar ölkədə uğurla gedən qanunçuluq işlərinin, iqtisadi yüksəlişin, əhali və vətəndaş cəmiyyəti institutları ilə səmərəli işgüzar əlaqələrimizin müsbət nəticələridir". R.Usubov qeyd edib ki, ötən 11 ildə nazirliyin büdcəsi 11 dəfə artıb ki, onun da 72 faizi sosial yönümlüdür. Nazirliyin aparatının struktur qurumları, ərazi polis orqanları və Daxili Qoşunlar üçün 319 sosial obyekt tikilib, 3 mindən çox avtomobil alınıb. Bundan əlavə, cinayətlərin qarşısının alınması, açılması, istintaq, təqsirləndirilən şəxslərin axtarışı, ictimai qaydanın qorunması, ictimai təhlükəsizliyin təmin edilməsi, yol hərəkəti təhlükəsizliyinin təşkili və sair istiqamətlər üzrə 40-a yaxın informasiya sistemi yaradılıb.

İctimai asayişin qorunmasında və qarşıya qoyulmuş tapşırıqların yerinə yetirilməsində fərqlənən şəxsi heyətin fədakar əməyinin ölkə başçısı tərəfindən həmişə yüksək qiymətləndirildiyini, müstəqillik dövründə DİN-in 992 əməkdaşı və hərbi qulluqçusunun dövlət mükafatlarına layiq görüldüyünü xatırladan general-polkovnik Ramil Usubov bu peşə bayramı ərəfəsində də ölkə Prezidentinin sərəncamları ilə 42 əməkdaşın orden və medallarla təltif edildiyini, 3 rəhbər vəzifəli şəxsə ali xüsusi rütbələr verildiyini diqqətə çatdırıb.

Nazir daxili işlər orqanlarının fəaliyyətini hər zaman yüksək dəyərləndirdiyinə görə bütün şəxsi heyət adından Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə dərin minnətdarlığını bildirib:

"Əmin edirəm ki, daxili işlər orqanları qanunla müəyyən edilmiş funkiyaları, qarşıya qoyulan tapşırıqları bundan sonra əzmlə yerinə yetirəcək, göstərilən ali etimad-andına sadiqliyi, xalqına, Vətəninə və prezidentinə sədaqətli xidməti ilə doğruldacaq".

***trend.az***

# Cəlilabad rayonunda Polis Günü qeyd olunmuşdur

Cəlilabad rayonunda polis işçilərinin peşə bayramı münasibətilə tədbir keçirilib. Tədbir iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət etdilər, gül dəstələri qoydular. Tədbirdə Cəlilabad Rayon İcra Hakimiyyətinin Başçısı Əziz Əzizov çıxış edərək peşə bayramı münasibətilə polis işçilərini təbrik edib, Azərbaycan polisinin yarandığı gündən dövlətçiliyimizin və qanunçuluğumuzun keşiyində sayıq dayandığını, vətəndaşların hüquqlarının qorunmasında ictimai asayişin möhkəmləndirilməsində əvəzsiz xidmətləri olduğunu vurğulayıb. Ümummilli lider Heydər Əliyevin qayğısı sayəsində Azərbaycanda milli polisin formalaşdığını, dövlətçiliyimizin dayaqlarından biri kimi çevik quruma çevrilməsindən bəhs edərək, Möhtərəm Prezident Cənab İlham Əliyevin qarşıya qoyduğu vəzifələrin həyata keçirilməsində polisin peşəkarlığını durmadan artırdığını, vətən-



daşların rahatlığı üçün bütün qüvvələrini səfərbər etdiyini vurğulayıb.Tədbirdə Rayon Polis Şöbəsinin rəisi Namiq Camalov çıxış edərək Azərbaycan polisinin ən çətin məqamlarda dövlətçiliyimizi qoruduğunu, sabitliyin, əmin-amanlığın keşiyində durduğunu, vətəndaşların hüquq və azadlıqlarının etibarlı təminatçısı kimi bu gündə vəzifə borcunu şərəflə yerinə yetirdiyini bildirərək peşə bayramı münasibətilə təbriklərni çatdırıb.Xidmətdə fərqlənən bir qrup polis işçisinə Cəlilabad Rayon İcra Hakimiyyəti Başçısının fəxri fərmanları təqdim olunub.

***Firudin Rüstəmov***

# Cəlilabadda "Azərbaycan nümunəvi tolerantlıq modeli kimi" mövzusunda seminar-treninq keçirilmişdir

27 iyun 2014-cü il tarixdə Cəlilabad Rayon İcra Hakimiyətində "Azərbaycan nümunəvi tolerantlıq modeli kimi" mövzusunda seminar-treninq keçirilmişdir.Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə keçirilən tədbirdə Cəlilabad Rayon İcra Hakimiyyətinin başçısı cənab Əziz Əzizov,aparatın məsul işçiləri, hüquq-mühafizə orqanlarının nümayəndələri, ərazi icra nümayəndələri, bələdiyyələrin sədrləri, yerli dindarların və ictimaiyyətin nümayəndələr iştirak etmişlər. Tədbirdə çıxış edən RİH-başçısı Əziz Əzizov Azərbaycanda din-dövlət münasibətləri, dini tolerantlıq, dinlərarası əməkdaşlıq və qarşılıqlı hörmət modelinin tarixi və hazırkı vəziyyəti haqqında geniş məlumat vermişdir.Qeyd olunmuşdur ki, Azərbaycan müstəqillik əldə etdikdən sonra dövlətimizin idarəçilik sükanı arxasına keçən ümummilli lider Heydər Əliyev cəmiyyətimizin mənəvi-əxlaqi əsaslarının möhkəmləndirilməsi, milli mədəniyyə-



timizin humanist potensialının, çoxəsrlik adət-ənənələrinin qorunub saxlanması və inkişaf etdirilməsi, respublikamızda dünyəvi dövlət şəraitində dövlət-din münasibətlərinin tənzim edilməsi sahəsində bir sıra mühüm və əvəzsiz işlər həyata keçirmişdir. Dahi lider Heydər Əliyev öz dərin biliyi, yüksək bacarığı, mətin iradəsi, böyük idarəçilik təcrübəsi, düzgün və uzaqgörən siyasəti sayəsində dövlət-din münasibətlərini inzibatçılığa yol vermədən, məqbul beynəlxalq standartlara müvafiq şəkildə qurulmasını təmin etmiş, dövlətin strateji xəttinə əsasən tənzimləmişdir. Məhz Ulu Öndərin səyləri nəticəsində cəmiyyətdə müxtəlif dinlərin nümayəndələri arasında qarşılıqlı inam formalaşdırılmışdır.Azərbaycanda tarixən müxtəlif dinlərin nümayəndələrinin, qurumlarının və cəmiyyətlərinin vahid rəhbərlik altında daim qarşılıqlı hörmət və mehribanlıq münasibətləri şəraitində yaşadığını söyləyən DQİDK-nın məsul işçisi Əliheydər Zülfüqarov bu gün qloballaşan dünyamızda baş verən proseslərin, ortaya çıxan qatı və məzhəbçi dini qruplaşmaların təsirinin cəmiyyətimizdən də yan keçmədiyini diqqətə çatdırmışdır.

Bildirilmişdir ki, son vaxtlar dini mübarizə forması sayılan cihad adı altında insanların, xüsusilə də gənclərin mənəvi duyğularının istismar olunaraq müxtəlif məqsədlərlə istifadə edilməsi halları narahatçılıq doğurur. Bunun qarşısının alınması üçün hamılıqla mübarizə aparmalıdır. Bunun üçün hər şeydən əvvəl cəmiyyətdə dini maariflənmə işinin daha mütəşəkkil təşkili vacib şərtlərdən biridir. Bu işdə dindarların və ziyalıların üzərinə mühüm vəzifələr düşür.

***F.Rüstəmov***
***Bölgə müxbiri***

# 1905-06-cı illərdə erməni-müsəlman davasında kürd xalqının rolu

**Əvvəli ötən saylarımızda**

1323-cü ilin zilhiccə ayının 5-ci günündə ermənilər Əsgəran yolunu bağladıqlarına görə Ağdamdan generalın başçılığı ilə iki dəfə top-tüfənglə silahlanmış qoşunun müşayiəti ilə arabalarla Qalaya azuqə və sursat gətirdilər. General Qalada olarkən Xəlfəli kəndindən gələn müsəlmanlar generala şikayət etdilər ki, ermənilər kəndi atəşə tuturlar. General onların səbirli olmasını məsləhət gördü və ermənilərin cəzalandırılacağını söylədi. General göstəriş verdi ki, bundan sonra kimdə tüfəng, yaxud tapança tutularsa, yəni həmin adam ya üç ay həbs olunacaq, ya da üç min manat cərimə verəcək. Bu məqsədlə general bir dəstə kazakla şəhəri dolanırdılar. Bundan sonra general on iki at qoşulmuş bir divar dağıdan top və xeyli kazakla gəlib hündür bir dağ başında dayandılar. Həmin yerdən ermənilərin bir neçə kəndi aydın görünürdü. General əmr etdi ki, Şuşakəndə, Kərgicahana, Qaybalıya və Daşkəndə həmin topdan atəş açsınlar. Kazaklar həmin topdan bu kəndlərə yetmiş dəfə atəş açdılar. Mərmilər düşən yerlərdə hər şeyi darmadağın edərək toz-torpağı asimana qaldırırdı. Ermənilər divanxanaya 30-40 nəfərlik nümayəndə göndərib barışıq izhar etdilər. Bundan sonra dükanlar alış-veriş etməyə başladılar. Erməni tayfası müsəlmanlara əziyyət vermək üçün Əsgəran yolunu bağlasalar da, həqiqətdə bu zülmü müsəlmanlara yox, özlərinə edirdilər. Ona görə ki, müsəlmanların evlərində qabaqcadan tədarük etdikləri malları və ərzaqları çox idi. Lakin ermənilər və müsəlmanlar dəyirmanları yandırdıqlarından Qalada un get-gedə azalırdı. Qalada olan qəriblər, miskinlər və kasıblar üçün vəziyyət daha da gərginləşdi. Çünki demək olar ki, bütün çörək dükanları bağlanmışdı. Amma evlərdə və bazarlarda buğda və darı hələ çox var idi. Odur ki, camaat əlacsız qalıb evlərdə əl dəyirmanları, yəni kirkirələri işə salmağa məcbur oldular. Buğdanı əl dəyirmanı ilə çəkib un edirdilər. Bazar və dükanlarda isə bişmiş noxud və lobya satırdılar. Amma əl dəyirmanı az olduğuna görə xalq bir qədər undan korluq çəkirdi. Bir gün təsadüfən qədim evin həyətindən otuz cüt əl dəyirmanı çıxdı. Bu əl dəyirmanı həyətdə torpağa basdırılmış idi. Bunların tapılması xalqın işini yüngülləşdirdi. Belə ki, hər kəs istədiyi vaxt əl dəyirmanını aparıb istifadə edə bilərdi. Amma bu erməni tayfasının bazarında azuqə və yemək tapılmırdı. Əgər müsəlman bazarında və dükanlarında qəndin bir girvəngəsi 6-7 şahı idisə, erməni dükanlarında dörd abbası idi. Müsəlmanlarda buğdanın bir pudu yeddi abbası idisə, ermənilərdə 14 abbası idi. Digər ərzaq malları və əşyalar da müsəlman dükanlarına nisbətən erməni bazarında olduqca baha idi. Odur ki, onlar müsəlmanlardan daha çox korluq çəkirdilər.

**ƏSGƏRAN YOLU BAĞLANANDA HÖRMƏTLİ ŞƏXSLƏRİN**

**MÜSƏLMAN TAYFASINDAN OLAN ŞƏHƏR KASIBLARINA ETDİKLƏRİ KÖMƏKLƏRİN MİQDARI VƏ ONLARIN ADLARI (1323-cü il)**

| | | |
|---|---|---|
| Bakı | Cənab Zeynalabdin Tağızadə | Un, 750 pud |
| Bakı | Hacı Zeynalabdın Tağızadə | Qənd, çay, 150 pud |
| Bakı | Hacı Zeynalabdın Tağızadə | Şam, 2 yeşik |
| Bakı | Hacı Zeynalabdın Tağızadə,<br>Ağa Murtuza Muxtarzadə,<br>Məşədi Xəlil Hacı Həsən oğlu | Neft, 600 pud<br>600 manat<br>500 manat |
| Qarabağ | Cəfər bəy Vəzirzadə | Buğda, 100 pud |
| Məşhəd | Qarabağlılar | 2300 manat |
| Aşqabad | Camaat | 2500 manat |
| Gəncə | Camaat | 700 manat |
| Bakı | Fəhlələr | |
| Bakı | Uşaqlar | |
| Qafqaz | Qarabağlılar | |
| Qazan | Camaat | |
| Şamaxı | Camaat | 318 manat |
| Ordubad | Camaat | 73 manat |
| Ərdəbil | Hacılar | 335 manat |
| Şərur uyezdi | Camaat | 43 manat |
| Aşqabad | Camaat | 2600 manat |
| İrəvan | Camaat | 68 manat |
| Rəşt | Camaat | 9 manat |

Zilhiccə ayının 7-də müsəlmanlarla ermənilər arasında barışıq elan olundu. Bu barışıq ermənilər üçün böyük savab iş kimi qiymətləndirildi. Onlar dəstə-dəstə müsəlman bazarlarına dolaraq dəsmal-dəsmal, çuval-çuval, qoltuq-qoltuq hər cür ərzaq malları, yeməli şeylər, quru meyvələr və bişmiş çörək alıb sevinə-sevinə evlərinə aparırdılar. Sən demə, onlarda heç nə yox imiş. Bir həftədə müsəlman bazar və dükanlarında neçə min manatlıq ərzaq və quru meyvə alveri oldu.

**PIÇƏNİSLİ KÜRDLƏRİNİN ERMƏNİ TAYFASI İLƏ BAŞ VERƏN ƏHVALATI**

Piçənisli Şahqulu Haqverdi oğlu özünün




iştirak etdiyi aşağıda yazılan əhvalatı mənimlə (M. M. Nəvvabla) üzbəüz əyləşib danışmışdı.

Piçənis müsəlman kəndindən və başqa kürd müsəlman kəndlərindən 300 nəfərə qədər igidlər və qeyrətli cavanlar toplaşaraq Paşa bəy Murad bəy oğlunun sərkərdəliyi ilə atlanıb Minkəndin üzərinə yeridilər. 160 evdən ibarət olan bu kəndin yarısı müsəlman idi. Paşa bəyin dəstəsi ermənilərin bir qismini öldürdülər və yaraladılar, bir qismi isə qaçıb dağıldılar. Piçənisli müsəlmanlar bu kənddən qənimət kimi 190 baş qoyun, 70 baş at və qatır apardılar. Bundan sonra onlar 200 evdən ibarət olan Xornavar kəndinə hücum etdilər. Paşa bəyin dəstəsi bu kəndə də böyük zərbə vurub qənimət kimi özləri ilə 1010 baş qoyun və 8 at apardılar.

Həmin kürd atlıları qəflətən Zivə kəndinə daxil olaraq ətrafda yerləşən beş erməni evini dağıdıb, mal-qarasını özləri ilə apardılar. Bir-iki gün keçdikdən sonra həmin dəstə üç yüz erməni evi olan Əliqulu kəndinə hücum etdilər. Onlar həmin kəndin bir tərəfindən daxil olaraq onu yarıya qədər dağıtdıqdan sonra əldə etdikləri qənimətlərlə geri döndülər. Paşa bəyin dəstəsi bir gecə dincəldikdən sonra sabahısı gün Qalədərəsi kəndinə tərəf üz qoydular. Qalədərəsində yaşayan ermənilər qabaqcadan yaxşı silahlanmış və hər tərəfdə səngərlər qurmuşdular. Onlar Paşa bəyin dəstəsini səngərlərdə silahlanmış, hazır vəziyyətdə qarşıladılar. Bir qədər atışmadan sonra Paşa bəyin dəstəsinin bir hissəsi kəndin kənarında yerləşən 23 evi ələ keçirərək oradan 450 qoyun, 60 qaramal və dörd quyu buğda əldə etdilər. Buğdanı atlara yükləyərək malqoyunla birlikdə yola düşdülər. Onlar Qalədərəsi kəndindən uzaqlaşanadək Paşa bəyin dəstəsinin o biri hissəsi erməniləri məşğul etdilər. Bu atışmada bir nəfər müsəlman həlak oldu. Onlar həlak olan yoldaşlarının cənazəsini götürüb geri qayıtdılar.

Paşa bəyin dəstəsi bir neçə gün istirahət etdikdən sonra atlanıb Cavanşir tərəfə hücum etdilər. Əvvəlcə 150 evdən ibarət olan Külədik kəndinin üstünə gəldilər. Ermənilər əllərində silah onların qarşısına çıxdılar. Müsəlmanlar «Ya Allah» deyib ermənilərin üstünə töküldülər və bir neçə saat ərzində onlardan yüz nəfərini qətlə yetirdilər. Bununla bərabər, neçə-neçə yaralananları da var idi. Bundan sonra onlar 250 baş heyvan da qənimət götürüb evlərinə qayıtdılar. Müsəlman kəndləri həmin gecə istirahət etdikdən sonra səhərisi yenə də atlandılar.

Bu dəfə onlar 60 erməni evi olan Damğalı kəndinə üz qoydular. Onların az olmasına baxmayaraq Paşa bəyin dəstəsinin qarşısına çıxaraq atışmağa başladılar. Müsəlmanlar onların üzərinə hücum edərək karıxdırıb və 90 nəfərəcən ermənini qətlə yetirdilər. Yaralananlar da çox idi. Bundan sonra onlar 200-ə yaxın qaramal və keçi qənimət götürərək geri qayıtdılar. Oradan Badara kəndinin üstünə gəldilər. Bu qorxmaz dəstə orada da 16 nəfər erməni öldürdükdən sonra 60 baş qaramal qənimət götürərək kəndlərinə qayıtdılar.

